# Bu Xinzəb deyilən şeytandır. Onu hiss etdiyin an ondan Allaha sığın və sol tərəfinə üç dəfə yavaşca tüpür

Osman bin Əbil-Asdan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə: o, Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gələrək: "Ey Allahın Rəsulu, şeytan mənimlə namazım və qiraətim arasına girdi, namazımı və qiraətimi qarışdırdı" dedi. Bunun üzərinə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona belə buyurdu: "Bu Xinzəb deyilən şeytandır. Onu hiss etdiyin an ondan Allaha sığın və sol tərəfinə üç dəfə yavaşca tüpür". Osman dedi ki: mən elə etdim, Allah da onu məndən uzaqlaşdırdı.
[Səhih] [Muslim rəvayət etdi]

Osman bin Əbil-As (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gələrək belə dedi: "Ey Allahın Rəsulu, şeytan mənimlə namazım və qiraətim arasına girdi, namazı xuşu ilə qılmağıma mane oldu, qiraətimi qarışdırmağa və namazda şəkk etməyimə səbəb oldu" - dedi. Bunun eşidən Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona: «Bu Xinzəb deyilən Şeytandır. Onu hiss etdiyin zaman Allaha üz tut, ondan Allaha sığın və xəfif bir şəkildə üç dəfə sol tərəfinə tüpür». Osman (Allah ondan razı olsun): Mən, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə əmr etdiyi şeyi etdim. Allah da onu məndən uzaqlaşdırdı dedi.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee